**Cinayət işləri (məhkəməyədək sadələşdirilmiş icraat materialları, xüsusi ittiham qaydasında şikayətlərə dair materiallar) üzrə hökmlərin, digər yekun qərarların əmlakın alınması haqqında hissələrinin icrası ilə əlaqədar təcrübədə yaranan hüquqi məsələlərə dair**

**İcmal**

Azərbaycan Respublikası Ali Məhkəməsinə daxil olmuş müraciətə əsasən məhkəmə hökmlərinin xüsusi müsadirə və mülki iddia ilə bağlı olan hissələrinin icrası məsələləri üzrə məhkəmə təcrübəsinin vahidliyini təmin etmək üçün müvafiq tədbirlərin görülməsini xahiş edilmişdir.

Bu məsələlər üzrə izahın verilməsinin zəruriliyi ondan irəli gəlir ki, bəzi hallarda hökmün əmlak məsələləri əlaqədar olan hissəsi üzrə "icra vərəqəsi", bəzi hallarda isə "hökmün icrası haqqında göstəriş" tərtib olunur; hökmün əmlak məsələləri və cəzaya aid hissələri bəzən eyni, bəzən də müxtəlif vaxtlarda icraya yönəldilir; bəzi məhkəmələr tərəfindən hökmün həmin hissəsinin icra edilməsi üçün hökmün surəti və digər sənədlər birbaşa azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxsin olduğu cəzaçəkmə müəssisəsinə, bəzi məhkəmələr tərəfindən isə icra məmuruna göndərilir.

1. Məhkəmə hökmünün əmlakın alınmasına dair (mülki iddianının təmin edilməsindən, zərərin ödənilməsindən irəli gələn) hissəsinin icrası ilə bağlı təcrübədə yaranan hüquqi məsələlərlə əlaqədar ilk növbədə belə hallarda hökmün icrasına dair göstərişin, yoxsa icra vərəqəsinin verilməli olmasına dair suala münasibətdə aşağıdakı izahın verilməsi məqsədəuyğun hesab edilir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 506.0.1-ci maddəsində hökmü və ya digər yekun qərarı çıxarmış məhkəmənin vəzifəsi kimi qanuni qüvvəyə minmiş hökmün və ya digər yekun qərarın icrası barədə dərhal göstərişin verilməsi nəzərdə tutulmuşdur.

CPM-in 507.4-cü maddəsinə əsasən "hökmün və ya məhkəmənin digər yekun qərarının icra edilməsi haqqında hakimin göstərişi hökm və ya məhkəmənin digər yekun qərarının icraya yönəldilməsi vəzifəsi üzərinə qoyulmuş müəssisə və orqanın vəzifəli şəxslərinə göndərilir. Hakimin göstərişi ilə birlikdə həmçinin məhkəmənin müvafiq hökmünün və ya digər qərarının surəti göndərilir".

CPM-in 508.1-ci maddəsinə əsasən "müvafiq müəssisə və ya orqanların vəzifəli şəxsləri təxirə salınmadan hökm, yaxud məhkəmənin digər yekun qərarının lazımınca icrasını təmin etməli və onun icraya yönəldilməsi barədə göstəriş vermiş hakimə dərhal məlumat verməlidir".

CPM-in qeyd olunan, eləcə də "Hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraat" fəsilinin digər normalarından belə görünür ki, bu fəsilin normalarında əsasən cəzanın, digər cinayət-hüquqi xarakterli tədbirlərin icrası məsələləri tənzimlənir, hökmün əmlak məsələlərinə həsr olunmuş hissəsinin icra edilməsinin xüsusiyyətlərindən irəli gələn məsələlərə isə toxunulmur.

Bu səbəbdən, hüquqi məsələlərin həll edilməsi üçün digər əlaqəli normativ aktlara baxılması tələb olunur.

Məsələnin digər normativ hüquqi aktlar, o cümlədən mülki mühakimə icraatında çıxarılmış məhkəmə aktlarının icrası məsələlərini tənzimləyən normalar əsasında həll edilməsi zərurəti həm də ondan irəli gəlir ki, CPM-in 179.2-ci maddəsinə əsasən mülki prosessual qanunvericiliyin normaları cinayət mühakimə icraatının prinsiplərinə zidd olmadıqda və mülki iddia üzrə icraatda zəruri olan qaydalar bu Məcəllədə nəzərdə tutulmadıqda mülki prosessual qanunvericliyin normalarının tətbiqinə yol verilir.

Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 234.1-ci maddəsinə əsasən qətnamə qanuni qüvvəyə mindikdən sonra icra edilir.

"İcra haqqında" Azərbaycan Respublikasının 2001-ci il 27 dekabr tarixli Qanununun preambulasında isə məhkəmələrin "cinayət işləri üzrə hökmlərinin və qərarlarının əmlakın alınmasına dair hissəsinin" məcburi icrası qaydalarının və şərtlərinin məhz bu Qanunla müəyyən edilməsi təsbit edilmişdir.

"İcra haqqında" Qanunun 6.1.1-cı maddəsinə əsasən "məhkəmələrin cinayət işləri üzrə hökmlərinin, qərardadlarının və qərarlarının əmlakın alınmasına dair hissəsi" bu Qanunda nəzərdə tutulmuş qaydada icraya yönəldilməli və icra edilməli olan icra sənədi hesab olunur.

"İcra haqqında" Qanunun 8.1-ci maddəsində "icra sənədinin icraya yönəldilməsi bilavasitə müvafiq qərarı çıxarmış məhkəmənin və ya digər orqanın vəzifəsi" kimi təsbit edilmişdir.

"İcra haqqında" Qanunun 7-ci maddəsində icra sənədlərinə aid tələblər sırasında "məhkəmə və ya digər orqanın qərarının nəticə hissəsinin" göstərilməsi də qeyd olunmuşdur.

Həmin Qanunun 7.2-ci maddəsinə əsasən "Məhkəmə qərarı əsasında verilmiş icra sənədi hakim tərəfindən imzalanır və möhürlə təsdiq olunur".

"İcra vərəqəsinin verilməsi və icrası ilə əlaqədar məhkəmə təcrübəsinin bəzi məsələləri barədə" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 2003-cü il 14 yanvar tarixli qərarının 1-ci bəndində məhkəmənin qətnaməsi qüvvəyə mindikdən sonra onun icraya yönəldilməsi üçün icra vərəqəsinin verilməsi nəzərdə tutulmuşdur.

İcra vərəqəsinin çıxarılmasının zəruri olduğu Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının 2011-ci il 29 noyabr tarixli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının məhkəmələrində kargüzarlığın aparılmasına dair Təlimat"ın (bundan sonra "Təlimat") müvafiq müddələrından da irəli gəlir.

Belə ki, Təlimatın 342-ci bəndinə əsasən "Hökmdə vurulan ziyanın ödənilməsi göstərilmişsə, o zaman hökm qanuni qüvvəyə mindikdən sonra birinci iş günündən gec olmayaraq, kargüzarlıq xidməti tələbkarların sayına uyğun tərtib edilmiş, hakimin imzası və məhkəmənin gerbli möhürü ilə təsdiq edilmiş icra sənədlərini və əmlakın siyahısını

məhkumun son yaşayış yerinin və ya əmlakının olduğu yerin icra məmuruna göndərir. İcra sənədinin göndərilməsi barədə tələbkar(lar)a məlumat verilir.”

Göründüyü kimi, “Təlimat”da qanuni qüvvəyə minmiş hökm, yəni hökmün əmlakın alınmasına dair hissəsi əsasında onun icraya yönəldilməsini ifadə edən (rəsmiləşdirən) icra sənədinin (icra vərəqəsinin) verilməsini tələb edir.

*Beləliklə, “İcra haqqında” Qanunun 6.1.1, 7.2 və 8.1-ci maddələrinin Ali Məhkəmənin Plenumunun 2003-cü il 14 yanvar tarixli qərarı, eləcə də “İcra haqqında” Qanunun digər maddələri (misal üçün, 13.1.1-ci maddəsi), “Azərbaycan Respublikasının məhkəmələrində kargüzarlığın aparılmasına dair Təlimat”ın müddəaları və CPM-in 179.2-ci maddəsi ilə əlaqəli şəkildə təhlili onu deməyə əsas verir ki, mülki prosesdə qanuni qüvvəyə minmiş qətnamənin icraya yönəldilmə vasitəsi icra vərəqəsi olduğu kimi, cinayət prosesində də məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün əmlakın alınmasına dair hissəsi (mahiyyət etibarı ilə hökmün qətnamə ilə eynilik təşkil edən müvafiq müddəası) hökmü qəbul etmiş məhkəmə tərəfindən “İcra haqqında” Qanunun 7-ci maddəsinin tələblərinə cavab verən icra vərəqəsi çıxarılmaqla icraya yönəldilməlidir.*

2. İcra vərəqəsinin hansı orqana (icra məmuruna, yoxsa məhkumun azadlıqdan məhrum etmə növündə cəzanı çəkdiyi cəzaçəkmə müəssisəsinə) göndərilməsi məsələsi ilə bağlı qeyd olunmalıdır ki, məhkəmələrin cinayət işləri üzrə hökmlərinin (qərarlarının) əmlakın alınmasına dair hissəsinin məcburi icrası qaydalarının və şərtlərinin müəyyən edilməsi “İcra haqqında” Qanunun tənzimləmə predmetinə aid edildiyindən, bu məsələ də “İcra haqqında” Qanunda nəzərdə tutulmuş qaydada həll olunmalıdır.

“İcra haqqında” Qanun isə müvafiq, o cümlədən məhkəmə qərarının icraya yönəldilməsini təmin edən icra sənədinin (icra vərəqəsinin) məhz icra məmuruna göndərilməsini tələb edir.

Belə ki, “İcra haqqında” Qanunun 2-ci maddəsinə əsasən “Azərbaycan Respublikasında məhkəmə və digər orqanların qərarlarının məcburi icrası icra məmurları tərəfindən həyata keçirilir”.

“İcra haqqında” Qanunun 8.1-ci maddəsinin ikinci abzasında təsbit edilmiş müddəaya əsasən “İcra sənədi bu Qanunun 7-ci maddəsində nəzərdə tutulan tələblərə uyğundursa, icra məmuru icra sənədini məhkəmədən və ya digər orqandan qəbul etməli və icraata başlamalıdır.”

Artıq yuxarıda istinad olunan “Təlimat”ın 342-ci bəndinin mənasına görə azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzalara məhkum olunmuş, şərti məhkum edilmiş və cəzanın çəkilməsi təxirə salınmış məhkumlara münasibətdə hökmün əmlakın alınmasına dair hissəsi üzrə icra sənədi (icra vərəqəsi) məhkumun son yaşayış yerinin və ya əmlakının olduğu yerin icra məmuruna göndərilir (“İcra haqqında” Qanunun 10.1-ci maddəsinə görə - borclunun yaşadığı yer, iş yeri, əmlakının olduğu yer üzrə icra məmuruna göndərilir).

Azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərə münasibətdə isə “Təlimat”ın 343-cü bəndində göstərilmişdir ki, “Təqsirləndirilən şəxs azadlıqdan məhrum

etmə cəzasına məhkum edildikdə vurulmuş zərərin məhkumun şəxsi əmlakı hesabına ödənilməsi mümkün olmadıqda icra sənədi məhkumun cəza çəkdiyi müəssisəyə göndərilməlidir. İcra sənədində borcun (borcun qalığının) və borclunun əmək haqqından tutulmalı məbləğin faizi göstərilməlidir. İcra sənədinin göndərilməsi barədə məktubun surətləri tələbkara və icraya nəzarət edən icra məmuruna göndərilir."

Təlimatın qeyd edilən bəndinin birinci və üçüncü cümlələrinin müqayisəsi və həmin bəndin "İcra haqqında" Qanunun müddəaları, eləcə də cəzaçəkmə müəssisələrinin fəaliyyətini tənzimləyən digər normativ aktlarla əlaqəli təfsiri onu deməyə əsas verir ki, şəxs azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunduqda da hökmün əmlakın alınmasına dair hissəsi üzrə tərtib edilmiş icra vərəqəsi birbaşa cəzaçəkmə müəssisəsinə deyil, icra məmuruna göndərilməlidir.

Məsələnin məhz bu cür həlli ondan irəli gəlir ki, hökmün əmlakın alınmasına dair hissəsinin icrası üzrə fəaliyyət bir sıra hərəkətlərin, məsələn icra üzrə icraata başlamaq, icra işini açmaq, icraya nəzarət etmək, icra sənədi tam icra olunduqda icraata xitam vermək, əmlak üzərinə həbs qoymaq və s. ehtiva edir ki, onların da yerinə yetirilməsi cəzaçəkmə müəssisələrinin işçi heyətinə deyil, "İcra haqqında" Qanunun müvafiq (məsələn, 8, 20, 24, 50.9-cu və digər) maddələri ilə məhz icra məmuruna aid edilmişdir.

Bundan başqa, nəzərə alınmalıdır ki, "İcra haqqında" Qanunun 63.1, 63.1.1 və 63.1.3-cü maddələrinə əsasən vaxtaşırı ödəmələrin tutulması haqqında icra sənədi icra edildikdə, eləcə də tələbin tam ödənilməsi üçün borclunun əmlakı olmadıda və ya onun əmlakı kifayət etmədikdə tələbin borclunun əmək haqqına və digər gəlirlərinə yönəldilməsinə yol verilir.

Həmçinin, o da nəzərə alınmalıdır ki, hökmün əmlakın alınmasına dair hissəsi yalnız məhkumun əmək haqqından birdəfəlik və ya vaxtaşırı tutulmalardan ibarət olmaya, konkret əmlakın məhkumdan alınıb tələbkara verilməsini də nəzərdə tuta bilər.

Cəzanın icrasını tənzimləyən normativ-hüquqi aktlar isə müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə cəzalarına məhkum olunmuş şəxslərin yalnız əmək haqqından birdəfəlik və vaxtaşırı tutulmaların aparılmasına yol verir (yəni hökmün əmlakın alınmasına dair hissəsi məhz belə tutulmaları ehtiva etdikdə, onun cəzaçəkmə müəssisələrində icrasını nəzərdə tutur).

Belə ki, Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (bundan sonra CİM) 99.1-ci maddəsinə əsasən "Cəzaçəkmə müəssisələrində və həbsxanalarda məhkumların qazancından, pensiyalarından və digər gəlirlərindən tutulmalar aparılır."

CİM-in 99.2-ci maddəsində isə nəzərdə tutulmuşdur ki, "Məhkumların əmək haqqından gəlir vergisi, məcburi dövlət sosial sığorta haqqı və digər məcburi ödənişlər tutulur. İcra vərəqəsinə və başqa icra sənədinə görə tutulmalar qalan məbləğdən qanunvericiliklə müəyyən edilmiş qaydada aparılır."

Azərbaycan Respublikası ədliyyə nazirinin 2004-cü il 24 mart tarixli 13-T nömrəli əmri ilə təsdiq edilmiş "Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları"nın (bundan sonra "Qaydalar") 231-ci bəndində də nəzərdə tutulmuşdur ki, "Məhkumların yeməyinə və

onlara verilmiş paltara çəkilən xərc gəlir vergisi, dövlət sosial müdafiə fonduna ayırmalar və digər məcburi ayırmalar tutulduqdan sonra ödənilir. İcra vərəqəsinə və başqa icra sənədlərinə görə tutulmalar qalan məbləğdən qanunvericiliklə müəyyən edilmiş qaydada aparılır. Yetkinlik yaşına çatmayan uşaqlar üçün aliment məhkumun qazancının bütün məbləğindən hesablanır."

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının 2015-ci il 30 iyun tarixli 7-N nömrəli Qərarı ilə təsdiq edilmiş "Penitensiar müəssisələrdə həbs edilmiş şəxslərin və məhkumların qeydiyyat işinin təşkilinə dair Təlimatı"ın 5.5.2-ci bəndində təsbit edilmiş müddəada isə nəzərdə tutulmuşdur ki, "maddi ziyanın ödənilməsi ilə bağlı hökmlər üzrə verilmiş icra sənədləri diqqətlə öyrənilir, icra vərəqələri İcra xidmətinin yerli qurumlarından daxil olduqda qəbul edilərək mühasibatlığa və tərbiyə işinin təşkili xidmətinə təhvil verilir, digər hallarda isə icra sənədlərinin geri qaytarılması təmin edilir."

Cəzaçəkmə müəssisələrinin fəaliyyətini tənzimləyən həmin normativ-hüquqi aktlar hökmün əmlakın alınmasına dair hissəsinin icrası ilə bağlı əmək haqqından vaxtaşırı və birdəfəlik tutulmaların aparılmasını bilavasitə cəzaçəkmə müəssisələrinə aid etsə də, həm özü-özlüyündə yuxarıda gətirilən normalar, həm də "İcra haqqında" Qanun icra məmurunu belə tutulmalarla bağlı olan icra prosesindən kənarlaşdırmamışdır.

Belə ki, istər CM-in 99.2-ci maddəsindən, istərsə də "Qaydalar"dan və "Penitensiar müəssisələrdə həbs edilmiş şəxslərin və məhkumların qeydiyyat işinin təşkilinə dair Təlimat"dan görünür ki, cəzaçəkmə müəssislərində məhkumların əmək haqqından tutulmaların aparılması birbaşa məhkəmə hökmü əsasında deyil, onunla bağlı verilmiş (cəzaçəkmə müəssisəsinə icra xidmətinin yerli qurumlarından (icra məmurundan) daxil olmuş) icra sənədi, yəni icra vərəqəsi əsasında həyata keçirilir.

"İcra haqqında" Qanunun 24, 26 və 66-cı maddələrinin birlikdə götürülməklə ümumi mənasına görə isə məhkəmə hökmünün əmlakın alınmasına dair hissəsi üzrə icra vərəqəsi, əgər həmin icra sənədi azadlıqdan məhrum etmə cəzasını çəkən şəxsin əmək haqqından vaxtaşırı və ya birdəfəlik tutulmalarla bağlıdırsa, məhz icra məmuru tərəfindən məhkumun olduğu cəzaçəkmə müəssisəsinə göndərməli və o, öz səlahiyyəti daxilində onun vaxtında və düzgün icra edilməsinə nəzarəti həyata keçirməlidir.

Belə ki, "İcra haqqında" Qanunun 24-cü maddəsində birdəfəlik və vaxtaşırı tutulmalarla bağlı icra snədələrinin icra məmuru tərəfindən borclunun iş yerinə göndərilməsinin mümkün olduğu təsbit edilməklə yanaşı, belə hallarda onun üzərinə həmin sənədin icra vəziyyətini yoxlamaq vəzifəsi qoyulmuşdur.

"İcra haqqında" Qanunun 26-cı maddəsinə əsasən "İcra sənədlərinin vaxtında və düzgün icra edilməsinə nəzarət icra qurumunun rəhbəri və məhkəmə tərəfindən öz səlahiyyətləri daxilində həyata keçirilir."

"İcra haqqında" Qanunun 66.2-ci maddəsində isə (yəni, məhz bu Qanunun tənzimləmə predmeti olaraq) təsbit edilmişdir ki, "Tələb cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların qazancına bu Qanunun 64-cü və 65-ci maddələri ilə müəyyən edilmiş qaydada yönəldilir."

“İcra haqqında” Qanunun təsvir edilən müddəaları, cəzaçəkmə müəssisələrinin fəaliyyətini tənzimləyən normativ-hüquqi aktların yuxarıda istinad olunmuş müddələrı ilə birlikdə götürüldükdə, aydın olur ki, bunlar azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslər barəsində verilmiş icra vərəqələrinin də məhkumun yaşayış yeri və yaxud əmlakının olduğu yer üzrə icra məmuruna göndərilməsini tələb edən normalar kimi çıxış edir.

“Təlimat”ın 343-cü bəndi də (həmin bəndlə cəzaçəkmə müəssisələrinə göndərilən icra vərəqələri üzrə icraya nəzarətin məhz icra məmuru tərəfindən həyata keçirilməsi nəzərdə tutulduğundan) məsələnin məhz bu şəkildə həllini istisna edən əsas kimi şərh edilə bilməz.

*Beləliklə, təqsirkar şəxsə azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəza və ya azadlıqdan məhrum etmə cəzası təyin edildikdə bütün hallarda məhkəmələrin cinayət işləri üzrə hökmlərinin əmlakın alınmasına dair hissəsi ilə bağlı verilmiş icra vərəqələri borclunun (məhkumun) yaşadığı yer və yaxud əmlakın olduğu yer üzrə icra məmuruna (müvafiq icra qurumuna) göndərilməlidir.*

3. Məhkəmədə icra vərəqəsinin nə vaxt verilməli (hazırlanmalı) olmasına dair məsələ ilə bağlı qeyd olunmalıdır ki, CPM-in 506.0.1-ci maddəsi məhkəmələrin qanuni qüvvəyə minmiş hökmlərinin və ya digər yekun qərarlarının icrası barədə dərhal göstərişin verilməsini nəzərdə tutduğundan, *hökmün əmlakın alınmasına dair hissəsi də hökm qanuni qüvvəyə mindikdən dərhal sonra icraya yönəldilməli və hökmün icrası barədə göstərişlə eyni vaxtda icra vərəqəsi də hazırlanmalıdır, yəni hakim tərəfindən imzalanmalı və məhkəmənin möhürü ilə təsdiq edilərək məhkəmənin kargüzarlıq xidmətinə təhvil verilməlidir.*

Artıq yuxarıda istinad olunmuş “Təlimat”ın məhkəmənin kargüzarlıq xidmətinin üzərinə hökm qanuni qüvvəyə mindikdən sonra birinci iş günündən gec olmayaraq, məhkəmənin gerbli möhürü ilə təsdiq edilmiş icra sənədlərini və əmlakın siyahısını icra məmuruna göndərmək vəzifəsini qoyan 342-ci bəndi də məsələnin məhz bu cür şərh edilməsinə əsas verir.

4. Xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirin tətbiq edilməsi barədə hökm və ya digər yekun qərarla bağlı icra vərəqəsinin çıxarılmasına zərurətin olub-olmaması və bu hissədə hökmün icraya yönəldilməsinə dair sənədin hansı orqana göndərilməli olmasına dair məsələyə gəldikdə, qeyd olunmalıdır ki, CİM bu halda icra vərəqəsinin deyil, CPM-in 506.0.1-ci maddəsində göstərildiyi kimi müvafiq məhkəmə baxışında sədrlik edən hakim tərəfindən hökmün (digər yekun qərarın) icrası barədə göstərişin verilməsini və bunun cəzaçəkmə müəssisəsinə deyil, icra məmuruna göndərilməsini nəzərdə tutmuşdur.

Belə ki, CİM-nin 183.1-ci maddəsinə əsasən “Xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirin tətbiq edilməsi barədə yekun qərar çıxarmış məhkəmə həmin qərar qanuni qüvvəyə mindikdən sonra onun surətini, qərarın icrası barədə göstərişi və əmlakın siyahısının surətini icra məmuruna göndərir və bu barədə müvafiq icra hakimiyyəti orqanına (Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə) məlumat verir.”

“Təlimat”ın 341-ci bəndi də məsələni eyni cür tənzimləyir.

Belə ki, “Təlimat”ın həmin bəndinə əsasən “Xüsusi müsadirə barədə hökmü çıxarmış məhkəmə hökm qanuni qüvvəyə mindikdən sonra hökmün surətini, hökmün icrası barədə göstərişi və əmlakın siyahısının surətini əmlakın olduğu yerin icra məmuruna göndərir və bu barədə müvafiq maliyyə orqanına məlumat verir.”

*Beləliklə, məhkəmənin əmlakın xüsusi müsadirəsinə dair hökmü ilə əlaqədar icra vərəqəsi deyil, hökmün icrası barədə göstəriş verilməli və bu göstəriş əmlakın olduğu yerin icra məmuruna göndərilməlidir.*

**Azərbaycan Respublikası Ali Məhkəməsi**